# Mahnı və rəqs

*Mus. Cahangir Cahangirov, söz.: Mir Mehdi Seyidzadə*

**Allegretto**






Ölkəmizin bizik bəxtiyar nəsli,
Oynamağa həvəsli, həvəsli.
Ay uşaqlar, gəlin verək əl-ələ,
Oynayaq biz, bax belə-belə.

Bağçamızda gülümsəyir gül-çiçək,
Qəlbimizdir sevincək, sevincək.
Vətən bizi öz qoynunda bəsləyir,
Gələcəyə bizi səsləyir.

Cərgələnək, bayraqları yelləyək,
Gəlin, şənlik eyləyək, eyləyək.
Hər tərəfə yayılsın bu nəğməmiz,
Səsimizdən gurlasın dəniz.